Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# Yeni YOL

15 YANVAR
2022-Cİ İL
№ 001 (148)

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

## BAŞ NAZİR ÖLKƏDƏ KAZİNOLARIN LƏĞVİNİ TƏKLİF EDİB



Hər il Gürcüstan əhalisinin 1 milyard 500 milyon lari həcmində pulu onlayn kazinolarda xərclənir. Bu isə fəlakət və cinayətdir. Bu sözləri mətbuata açıqlamasında Baş nazir İrakli Qaribaşvili söyləyib.

Hökumət başçısı deyib ki, qumar oyunları əhalinin sosial cəhətdən həssas təbəqələrini daha da yoxsullaşdırır, zəiflədir, onları asanlıqla müdafiəsiz buraxır. Bəziləri isə narkomaniyaya və qumardan başqa anlaşılmaz fəaliyyətlərə cəlb olunurlar.

İrakli Qaribaşvili ölkədə kazinoların ləğvi ilə bağlı qanunvericilik təşəbbüsü ilə çıxış edib və artıq parlamentin əksər deputatlarının dəstəyini qazandığını bildirib.

“Mən parlamentə və hər bir deputata qumar oyunlarının tənzimlənməsi ilə əlaqədar təşəbbüsümü dəstəklədikləri üçün təşəkkür edirəm. Biz təşəbbüsü sona qədər aparıb bu qanunu qəbul etdik. Biz qumar oyunları üçün yaş həddini 25-ə qaldırdıq, çünki gənclər qumar və qumar oyunlarının pis tərəflərindən təəssüf ki, xəbərsizdirlər. Bu oyunların ucbatından əhalimiz daha da yoxsullaşıb. Əsasən sosial cəhətdən həssas insanlar yoxsulluqla üz-üzədir. Təsəvvür edin, bizim əhalinin pulu, 1 milyard 500 milyon lari qumar oyunlarına gedir”, - deyə İ.Qaribaşvili bildirib.

Baş nazir, ümumiyyətlə, ölkədə kazinoların ləğvini təklif edib və deputatların bu təklifi də qəbul edəcəklərinə inandığını qeyd edib.

## EPİDEMİOLOQLAR: GÜRCÜSTANDA EPİDEMİOLOJİ VƏZİYYƏT PİSLƏŞƏCƏK



Gürcüstanda epidemioloji vəziyyətin kəskin pisləşəcəyi gözlənilir, ölkədə koronavirusa yoluxma hallarında ciddi artım proqnozlaşdırılır.

Epidemioloqların fikrincə, yanvar ayının sonunda Gürcüstanda “Omikron” ştamının yayılması pik həddə çatacaq.

Hazırda ölkənin xəstəxana sektoru həddindən artıq yüklənmə və çox sayda pasiyent axınına hazırlaşır.

Gürcüstanda cari epidemioloji vəziyyəti şərh edən səhiyyə naziri Zurab Azaraşvili bildirib ki, səhiyyə sistemi tam səfərbər olunub və yüklənməyə hazırdır. O qeyd edib ki, bir neçə həftədən sonra COVID-19-un müalicəsində effektiv olan əlavə “Pfizer” və “Merk” dərmanları tədarük ediləcək.

## DÖVLƏT MÜFƏTTİŞLİYİ XİDMƏTİ LƏĞV OLUNDU




Gürcüstanın Dövlət Müfəttişliyi Xidməti ləğv olundu.

Prezident Salome Zurabişvili müstəqil dövlət qurumunun ləğvi barədə qanunu imzalayıb.

Qanuna əsasən, ləğv ediləcək xidmətin bazasında iki qurum – Xüsusi İstintaq Xidməti və Şəxsi Məlumatların Mühafizəsi Xidməti yaradılacaq.

Qeyd edək ki, Gürcüstanda Dövlət Müfəttişliyi Xidmətinin yaradılması barədə qanun 2018-ci ildə qəbul edilib. Müstəqil dövlət institutunun əsas fəaliyyət istiqaməti şəxsi məlumatların mühafizəsi və müəyyən vəzifə cinayətlərinin araşdırılmasından ibarət olub.

Səh. 2 KƏSƏYİN GÖZ YAŞLARI - Azər Musaoğlu yazır
Səh. 3 İBRAHİMXƏLİL XANIN ŞEŞPƏRİ - İbrahimxəlil yazır
Səh. 4 VAHİD MİLLİ İMTAHANLARA QEYDİYYAT MART AYINDA BAŞLAYACAQ
Səh. 4 2021-2030-CU İLLƏR ÜÇÜN DÖVLƏT DİLİ ÜZRƏ VAHİD PROQRAM TƏSDİQLƏNİB
Səh. 5 ƏSƏRİNİ SEYR ETMƏYƏ CƏSARƏTİN VARMI? - Lamiyə Hacıyeva yazır
Səh. 5 DÜŞMƏN QƏBİLƏ, DOST QƏBİLƏ, ELİTA, AŞAĞI TƏBƏQƏ - Vüqar Vəkiloğlu yazır
Səh. 6 TÜRKDİLLİ XALQLARIN ƏXLAQİ-ESTETİK ALƏMİ - Elizbar Cavelidze
Səh. 7 NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR - Afiq Muxtaroğlu yazır

## GÜRCÜSTANDA KORONAVİRUSDAN 14 425 NƏFƏR DÜNYASINI DƏYİŞİB

Yanvarın 15-nə olan son məlumata əsasən, Gürcüstanda koronavirusdan ölənlərin sayı 14 425 nəfərə çatıb. Bu haqda hökumətin xüsusi yaratdığı www.stopcov.ge saytında qeyd edilib.

Məlumatda ölkədə koronavirusa yoluxanların ümumi sayı 990 183 nəfər, sağalanların sayı isə 925 137 nəfər olaraq göstərilib.

Yanvarın 15-nə kimi ölkədə ümumi olaraq 2 603 603 nəfər COVID-19 əleyhinə peyvənd olunub.

Ölkə üzrə karantin rejimində 53 nəfər, stasionar nəzarətdə 4 369 nəfər, COVID



mehmanxanalarda olan şəxslərin sayı 2 077 nəfə olaraq göstərilib.

Qeyd edək ki, COVID-19-un təhlükəli mutasiyası olan “omikron” ştamına yoluxanların sayı 1100-ü ötüb.



# KƏSƏYİN GÖZ YAŞLARI

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Kəsək bilirsiz nədir. Biz tərəflərdə kəsəkli yollar, əkinlər, tarlalar və sair kəsəkliklərə çox rast gəlinir, demək olar ki, hər addımda. Və hər atılan addımda bu quruyub bərkimiş torpaq, daha doğrusu, palçıq yumrusu, qırıntısı, hissəsi çox ayaqqabıların ömrünü qısaldıb, çox dizləri yaralayıb, hətta başlar da yarıb. Əgər sən bir dəfə də olsa asfalt yolu qısaltmaq məqsədilə kəsə getmisənsə, kəsəklə tanışsan demək, kəsəkli yolun nə olduğunu da bilirsən, necə olduğunu da.

Baxmayaraq ki, kəsək də torpaqdı, onda nə ot cücərər, nə də soxulcan yuvalayar, ta ki islanana kimi. Bu fani dünyada hər şeyin sonu olduğu kimi kəsəyin də sonu var. Kəsəyin ömrü yağışın, qarın yağmasına qədərdir. Elə ki bərk kəsək islandı, üzü yumşalıb yenidən yarandığı torpağa dönür, insan kimi.

İnsan demiş, biz tərəflərdə kəsəkli yollar, əkinlər, tarlalar və sair kəsəkliklərə çox rast gəlindiyi kimi kəsək insanlara da rast gəlinir.

Dilimizdə "kəsək oturub daşın gününə ağlayır" ifadəsi var. İfadə xalq arasında yayılmış əhvalatdan götürülüb. Əhvalata görə, bir ağac yaxınlığında qəmli, kədərli, narahat görünən kəsək parçasından belə qəmgin olmağının səbəbini soruşur. Kəsək – *"Göy üzünü qara buludların aldığını görmürsən-mi! Bir azdan yağış yağacaq, yanımdakı bu yazıq daşı ovub dağıdacaq, sonra isə sel gələrək onu parçalayıb özü ilə aparacaq"*, – deyə ağlayaraq, sızlayaraq, burnunun fırtılığını çəkərək cavab verir.

Ağac kəsəyin sözlərinə təəccüb edərək deyir:

*– Ay kəsək, sənə heç yağış dəyməmiş ovulub tökülürsən, yağış yağarsa, birinci səni yox edəcək. Sənsə oturub möhkəm daşın dərdinə ağlayırsan! Öz dərdinə qalsan, daha yaxşı olmazmı?*

İndi ağacınkı olmasın, ay kəsək, sən bir özünə bax, ətrafına nəzər sal, əvvəlcə öz gözündəki tiri çıxar, öz keçəlinə dərman axtar, öz dərdinə qal, sonra oturub özgəsinin halına ağlayarsan. Yaşadığın ölkənin, bölgənin, şəhərin, kəndin, küçənin, məhlənin problemləri sənə bəs etmirmi ki, durub qonşu ölkələrin şəhərlərində, kəndlərində, küçələrində, məhlələrində əli quqllı (Google) problem axtarırsan?! Özün xirtdəyə kimi problemin içindəsən; necə, nə cür istəyirsən, hansı ölçüdə, hansı mövzuda istəyirsən problem var.

Danışmağa gələndə isə özünün halal, mərhəm, doğma problemlərinə kor, kar, lal olaraq qonşu ölkələrin haram, naməhrəm, ögey problemlərindən bülbül kimi ötür, qarğa kimi qarıldayırsan.

Buna biz tərəflərdə qorxdum deyərlər. Müharibə qıraqdan baxana asan gəlir axı. Eşşəyə gücü çatmayanlar palanı taptayarlar həmişə. Sənə nə zor düşüb ki, özünün insan hüquqların hər addımda pozulduğu halda hansısa Afrika ölkəsində hansısa aborigen qəbiləninin kərgədan ovunu qınayıb, hansısa üç tonluq kərgədanın kəsilmiş buynuzu üçün şüvən salırsan və ya hansısa Yaxın və Orta Şərq ölkəsində keçirilən prezident seçkilərinin saxtalaşdırılmasını bütün dünyaya sübut etməyə çalışarkən klaviatura arxasında sol böyründə "qrija" (yırtıq) əmələ gələnə kimi gücənirsən.

Guya sən gülüstanda rifah içində yaşayırsan! Guya sənin, yaşadığın cəmiyyətin, vətəndaşı olduğun ölkənin heç bir problemi yoxdur! Guya sənin heç bir hüququn pozulmur, guya seçkilər saxtalaşdırılmır! Guya əla təhsil alırsan, tibbi xidmət görürsən! Guya hamı işləyir, hamı yüksək əməkhaqqı alır, pensionerlər şaddıqlarına şıllağ atırlar! Guya mətbəxtdə su kranını açanda oradan da demokratiya axır! Guya Kaxet qarpızını kəsirsən onun içindən də söz azadlığı çıxır! Guya o qədər bolluqdur ki, çatdırıb yeyə bilmirik, hamısını xaricə satırıq! Guya xoşbəxtlikdən bezib, darıxıb bədbəxlik törədirik arada! Guya Avropayıq!

Nə isə... axı hər hansısa kiçik bir qərar qəbul edəndə səni heç kəsək yerinə də qoymurlar, ay kəsək. Sənsə oturub daşın gününə ağlayırsan. Yalansa daş düşsün təpənə!

## MÜSƏLMAN İCMASINA 2,2 MİLYON LARİ AYRILIB



Gürcüstanda 2022-ci ilin dövlət büdcəsindən ölkənin müsəlman icmasına 2,2 milyon lari həcmində vəsait ayrılıb. Bu barədə Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyindən bildirilib.

Qeyd olunub ki, dini icmalar üçün nəzərdə tutulan 4,5 milyon larinin 3,5 milyonu artıq bölüşdürülüb. Erməni xristian icması 600 min lari, Roma katolik icması 400 min lari, yəhudi icması isə 300 min lari əldə edib.

Yerdə qalan 1 milyon larinin bölgüsü cari ilin sonuna qədər aparılacaq.

Qeyd edək ki, Gürcüstan əhalisinin 11 %-ni müsəlmanlar təşkil edir.

## KVEMO KARTLİ QUBERNATORUNA İKİNCİ MÜAVİN TƏYİN OLUNUB



Kvemo Kartli qubernatoru Giorgi Doxturişviliyə ikinci müavin təyin olunub. Qubernatorun birinci müavini Giorgi Şincikaşvili, ikinci müavini isə İlia Calağaniadır.

G.Şincikaşvili 2020-ci ilin 28 dekabrından qubernatorun müavini vəzifəsini icra edir. Onun dövlət işində uzunillik təcrübəsi var və 2006-cı ildən müxtəlif dövlət qurumlarında rəhbər vəzifələrdə çalışıb.

Yeni təyin olunmuş ikinci müavin İ. Calağania isə 2021-ci ilin 1 fevral tarixindən Abxaziya Muxtar Respublikasının prokuror müavini vəzifəsini tuturdu və son 23 il ərzində dövlət, özəl və təhsil sahəsində fəaliyyət göstərib.

## KARANTİN MÜDDƏTİ QISALDILIB




Gürcüstanda koronavirusun yayılmasına görə tətbiq olunan təcrid və karantin müddəti qısaldılıb. Bu barədə ölkənin Səhiyyə Nazirliyi qərar qəbul edib.

Yanvarın 17-dən qüvvəyə minəcək qərara əsasən, xəstəliyi simptomsuz keçirənlər üçün təcrid müddəti 8 gün, orta və ağır simptomların olduğu halda isə 10 gün müəyyən olunub. Karantin və təcrid müddəti başa çatandan sonra 5 gün ərzində qoruyucu maskadan istifadə israrla tövsiyə olunub.

Təcrid və karantin müddətinin qısaldılması həm koronavirus xəstələri, həm də onlarla təmasda olanlara aid ediləcək.

Qeyd edək ki, hazırda ölkədə təcrid və karantin müddəti 12 gün davam edir.

## "LELO" PARTİYASININ LİDERLƏRİ HƏBSDƏN AZAD OLUNUBLAR



Pul yumada ittiham olunan TBC Bankın təsisçiləri, müxalif "Lelo" Partiyasının liderləri Mamuka Xazaradze və Badri Caparidze cinayət işi üzrə təqsirli biliniblər. Bu barədə qərar Tbilisi Şəhər Məhkəməsində qəbul olunub.

Qərara əsasən, onlar 7 il müddətinə azadlıqdan məhrum edilsələr də, iddia müddəti başa çatdığına görə cinayət məsuliyyətindən azad olunublar. M.Xazaradze və B.Caparidze zaminə buraxılıb və ölkəni tərk etmələrinə qadağa tətbiq edilib. Təqsirləndirilənlər barədə girov və həbs qərarları ləğv olunub.

Xatırladaq ki, M.Xazaradze və B.Caparidzeyə qarşı 2019-cu ilin iyulunda 16 754 000 ABŞ dollarının qanunsuz leqallaşdırılması ilə bağlı ittiham irəli sürülüb. İş üzrə materiallara əsasən, pul yuma faktı 2008-ci ilin aprel-may aylarında həyata keçirilib. Məhkəmə qərarına əsasən, hər ikisinin bank hesablarına həbs qoyulub, hər biri 700 min lari girov müqabilində və ölkəni tərk etməmək qadağası ilə azadlığa buraxılıb. Hər iki müxalifətçi onlara qarşı qaldırılan cinayət işini absurd adlandıraraq siyasi motivlərə görə təqib olunduqlarını iddia ediblər.

# İBRAHİMXƏLİL XANIN ŞEŞPƏRİ



Üstünüzə xeyirli sabahlar açılsın! Sabah oldu. Ekzüperi demiş, "planet"imi qaydaya saldıqdan sonra telefona baxdım. Osman Əhmədoğlundan (torpağı nurlu olsun) zəng gəlibmiş: düz saat 22.30-da. Amma düz on üç ildən artıqdır ki, telefonumu saat 22.00-da bağlayıram. Dostlarımın hamısı bilir. Həkim məsləhəti ilə başlayan bu "əməliyyat" sonradan vərdiş halını aldı və indi də davam etməkdədir.

Osmanı yığdım. Kürüstünə, Küraltı bənövşələrə salamlardan sonra:

– Gecə zəng eləmisən, – dedim, – xeyir olsun!

– Ay sənin telefonun bağlı qalsın, ay evin tikilməsin, – dedi, – axşam sənə deyəcəyim sözlərin dadı-tamı bu zamanamı qalar? Hayıf elədin o gözəl sözləri! Vallah, zay elədin!

Osman xətrimi çox istəyirdi. Arada-sırada küssə də dönərgəsi yaxın idi.

– Kitabını aldım, – dedi, – payın çox olsun, amma orada bir "Müəllifdən anket doldurmaq cəhdi" var ha, yaman kövrəltdi məni: "Kazreti deyilən bir qəsəbədə müəllim işləyirəm. Birincilərin (cəmi iki nəfər) ayaqqabılarının açılmış qaytanını da bağlayıram, onbirincilərə proqrama düşməyən Axmatovadan da danışıram... (və davamı)...

90-cı illərin faciəsi nə yeddi idi, nə də yetmiş yeddi. Sovet İttifaqı boyda bir nəhəng arxasını yerə qoymuşdu. O böyük məkanda millətçilik dalğaları daxil, münaqişələr alovlanırdı. Bizim bölgələrdən Bolnisiyə və Kazretiyə də sökün düşmüşdü. Amma bu, arazbarı ayrı!..

Məgər biz təkcə Müşfiqdən, Caviddən, Qalaktiondan, ya da Axmatovadanmı danışırdıq?

...Canımız can Azərbaycanın yanında idi. Sınıq körpünün bəri üzündə erməni təcavüzkarları tərəfindən işğal edilmiş məntəqələrin "qara" siyahısını tuturduq:

*Xocalı – 26.II.1992*
*Şuşa – 8.V.1992*
*Laçın – 17.V.1992*
*Füzuli – 23.VIII.1993...*

**Və sair**lərə sığmayan, sığa biməyən ümidlər, hönkürtülər. Gedənlərin, buraları tərk edənlərin dalınca baxa-baxa qalan biz, onda buralarda ənənələr və dəyərlər fonunda təkcə gələcəyimizi deyil, nə qədər qəribə olsa da, həm də keçmişimizi seçirdik.

Məhv olmaq üzrə olan bir ölkədə hətta "çiçəklənən individ" (Perikl) olmağı belə, kim istəyər? Təəssüf ki, "hampalar"la birlikdə müəllimlərdən də köçənlər oldu; heç olmasa üççə gün sinif jurnallarını almağı belə gözləməyən müəllimlər! Amma nə etmək olardı?

Qaldıq "rəncbərlər"... Yəni "dəyərlərin problematikası" (M.Veber) bu dəfə də rəncbərlərə, əkinçilərə qalırdı... Bəzən ədəbiyyatı da, tarixi də, hətta... biologiyanı da bir müəllim keçirdi. Təki məktəb bağlanmasın! Çünki canımız məktəbdə idi!

Şagirdlər soruşurdular:

– Müəllim, Siz İbrahim xanın – söhbət III Qarabağ xanı İbrahimxəlil xandan gedirdi – şeşpərindən danışırsınız, bə Azərbaycan əsgəri o şeşpəri niyə çıxarmır? Niyə hərcayıların kəlləsinə çalmır onu?

Arada-sırada Koroğludan, Qıratdan, Misri qılıncdan danışırdıq.

*Hardasan, ümidim, ya bir Koroğlu,*
*Qoşun yollarda qalıb* (Akif Səməd). – misralarını səsləndirirdik. Amma uşaqlar şeşpəri, xəyallarında İbrahimxəlil xanın möcüzə olaraq gördükləri şeşpərini istəyirdilər; onlar da xilaskarı belə gözləyirdilər.

Yəni bu əmuddu, toppuzdu, gürzdü – eyni təyinatlı qədim silah növüdür ki, altıdillisinə şeşpər deyilib.

Anladırdıq ki, İbrahimxəlil xanın Azərbaycan tarixi muzeyində qorunan şeşpəri xanlıqlar dövrü Qarabağda hakimiyyət rəmzi olub. Şeşpər poladdanır, üstü nəbati naxışlarla, qızıl ilmələrlə bəzədilib. Hər növ qalxana və zirehə qarşı işlədilən üstün silah növündən artıq, hakimiyyət simvolu, vətən amanatı kimi işarələnməkdədir.

Şagirdlər bunu da bilirdilər ki, İbrahimxəlil xan həm də Qarabağın xarıbülbülü, sevda tutan qərənfili sayılan şairə Natəvanın babasıdır.

Burasını da deyim: siz heç Şuşa yaxınlığındakı (canımız Şuşa!) Xanbağı deyilən yerdə ailəsi ilə birlikdə güllələnmiş İbrahimxəlil xana bu qədər illər sonrası yas tutan gördünüzmü? Mən gördüm. 1992-ci ilin mayında! Şuşanın süqutu günü...

Azyaşlı şagirdlərin fikrini yayındırmaq üçün Giziroğlu Mustafa bəyin şeşpərinə keçirdik:

*Bir atı var – Alapaça,*
*Aman verməz Qırat qaça.*
*Şeşpərinin ucu haça,*
*Giziroğlu Mustafa bəy!*

Amma uşaqlar İbrahim xanın – İbrahimxəlil xanın şeşpərini istəyirdilər, onu təkid edirdilər! Onda onlara hətta Andersenin "Düyməcik", "Kralın təzə libası", "Çirkin ördək balası" kimi nağılları da maraqsız gəlirdi! Bir var Azərbaycanı, Şuşanı, Laçını Azərbaycanda sevəsən, bir də var Sınıq körpünün sınmaq bilməyən bəri üzündə! Onlar o şeşpərin, o əmudun, o toppuzun, o bozdoğanın (Türkiyə türkcəsində) sehrli gücünə inanırdılar. Çox inanırdılar! O uzaq, o yaddaşlara qan rəngində yazılan 92 – 93-cü ilərdə...

P.S.

...Aradan qərinə ötüb. Mənə ilk könüllülərlə Qarabağa yollanmış qardaşım oğlu Kamran 44 günlük müharibədən qalib olaraq qayıdanda danışıb bunları. Mən də sizə çatdırıram:

– Cəbhədə, xüsusilə də aylı axşamlarda, mənə bəzən belə gəlirdi ki, İbrahimxəlil xanın şeşpəri Azərbaycan tarixi muzeyindən çıxıb, Araz qıraqlarına gəlib və bizdən qabaqlarda par-par parıldayan da elə odur!..

**İBRAHİMXƏLİL**

## BAKI-TBİLİSİ QATARININ HƏRƏKƏTİ BƏRPA OLUNA BİLƏR



Gürcüstan Azərbaycanla dəmir yolu vasitəsilə sərnişin daşımalarının bərpası istiqamətində danışıqları davam etdirir. Bu barədə "Gürcüstan Dəmir Yolları" SC-nin Baş direktoru David Peradze "Forbes" jurnalına müsahibəsində bildirib.

O deyib ki, Bakı və Tbilisi arasında qatar reyslərinin bərpasının dəqiq vaxtı daha sonra açıqlanacaq.

Gürcüstan və Azərbaycan paytaxtları arasında sərnişin qatarlarının hərəkəti koronavirus pandemiyası səbəbindən 2020-ci ilin martın 14-dən dayandırılıb. 2021-ci ildə Gürcüstan dəmir yolu ilə sərnişin daşımalarını yalnız Ermənistan istiqamətində bərpa edib.

## QAZAXISTANDAKI HADİSƏLƏRLƏ BAĞLI TDT VİDEOKONFRANS KEÇİRİB

Türk Dövlətləri Təşkilatı (TDT) Xarici İşlər Nazirləri Şurasına başçılıq edən Türkiyə Cümhuriyyətinin xarici işlər naziri Mevlüt Çavuşoğlunun təşəbbüsü ilə Qazaxıstandakı son hadisələri müzakirə etmək üçün yanvarın 11-də fövqəladə videokonfrans keçirilib.

Konfransda Türkiyə Cümhuriyyətinin xarici işlər Naziri Mevlüt Çavuşoğlu, Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov, Qazaxıstan Respublikasının Baş nazir köməkçisi və xarici işlər naziri Muxtar Tileuberdi, Qırğızıstan Respublikasının xarici işlər naziri Ruslan Kazakbayev, Özbəkistanın Xarici işlər naziri Əbdüləziz Kamilov, Macarıstanın xarici işlər və ticarət naziri Peter Szijjarto, Türkmənistanın Nazirlər Kabinetinin sədr müavini və xarici işlər naziri Raşid Meredov və Türk Şurasının Baş katibi Bağdad Amreyev iştirak ediblər.

## GÜRCÜSTANIN VALYUTA EHTİYATLARI 4,3 MİLYARD DOLLARA ÇATIB



Gürcüstan Milli Bankının məlumatına əsasən, ölkənin beynəlxalq valyuta ehtiyatları ötən ilin sonunda 4,3 milyard ABŞ dollarına yüksəlib.

Məlumata görə, bu, Gürcüstan tarixində ilk ən yüksək rəqəmdir. Bundan əvvəl 2021-ci ilin may ayında ölkənin xarici valyuta ehtiyatları 4,1 milyon dollar olub.

Koronavirus pandemiyasının başladığı 2020-ci il ərzində Gürcüstanın xarici valyuta ehtiyatları 361,3 milyon dollar artıb.

## "ŞƏRQ-QƏRB" MAGİSTRALININ TİKİNTİSİ SÜRƏTLƏNDİRİLƏCƏK

Gürcüstanın dövlət büdcəsində 2022-ci ildə beynəlxalq əhəmiyyətli yolların tikintisi və təmiri, eləcə də regionların inkişafı üçün 2,9 milyard lari vəsait nəzərdə tutulub.

Bu vəsaitdən 1,9 milyard lari beynəlxalq əhəmiyyətli yolların təmiri və tikintisinə sərf olunacaq. Bu məbləğin də böyük hissəsi "Şərq-Qərb" (E-60) beynəlxalq əhəmiyyətli magistralın tikintisinə yönəldiləcək.

Qeyd edək ki, E-60 tranzit dəhlizi böyüklüyünə görə Avropada ikinci ən böyük magistraldır. Magistral yol Fransadan başlayır və Qırğızıstanda başa çatır. Gürcüstan üçün bu yol Azərbaycan sərhədindən Qara dəniz sahilindəki Poti limanına kimidir. Gürcüstan ərazisində yolun uzunluğu 392 kilometr təşkil edir və əsas hissə Rikoti aşırımıdır.

Rikoti aşırımında 51,6 kilometr uzunluğunda müasir standartlara cavab verən yolun, 96 körpünün və 53 tunelin tikintisi nəzərdə tutulub.

Gürcüstan Regional İnkişaf və İnfrastruktur Nazirliyinin məlumatına əsasən, artıq 6 tunel çəkilib və tamamlama işləri aparılır. Daha bir neçə körpülərdə birləşdirici plitələrlə monolit konstruksiyanın quraşdırılması prosesinə başlanılıb, bundan sonra isə səki döşənəcək.

Bundan başqa, Tbilisi-Batumi magistralında dairəvi yolun, Gürcüstandan Rusiyaya gedən əsas yoldakı Kvaşeti-Kobi tunelinin və Saçxere-Raça sürət yolunun tikintisinə də vəsait yönəldiləcək.

## 2021-2030-CU İLLƏR ÜÇÜN DÖVLƏT DİLİ ÜZRƏ VAHİD PROQRAM TƏSDİQLƏNİB



Baş nazir İrakli Qaribaşvilinin imzaladığı sərəncama əsasən, 2021-2030-cu illər üçün dövlət dili üzrə vahid proqram və 2021-2022-ci illərin fəaliyyət planı təsdiqlənib.

Strateji sənəddə əsas problemlər, onları yaradan faktorlar və dövlət dilinə təsir göstərən mənfi nəticələr qeyd olunub:

Sənədə əsasən, 2014-cü ilin ümumi siyahıyaalınmasına görə, əhalinin təxminən 90 %-i gürcü dilində danışır. Onlar arasında etnik qeyri-gürcülər də var. Ancaq müqayisədə çoxsaylı etik qruplarda gürcü dili səviyyəsi aşağıdır. Buna görə də onların vətəndaş inteqrasiyası çətinləşib. Dövlət dilini bilməmək onlara müxtəlif xidmətlərdən tam yararlanmaqda, təhsil almaqda, karyera inkişafında və şəxsi firavanlığa nail olmaqda mane olur.

2017-2021-ci illərin təhsil və elm strategiyasında problemlərdən biri olaraq qeyri-gürcüdilli məktəbəqədər təhsil müəssisələrində gürcü dili komponentinin olmaması qeyd olunmuşdur. Bunun yaranmasına səbəb olan faktor kimi dövlət təhsil standartlarının olmaması göstərilirdi.

Qeyd olunub ki, dövlətin genişmiqyaslı tədbirlərinə, dövlət dilinin inkişafı və əhalinin dil hüquqlarının qorunmasının qanunvericiliklə təmin edilməsinə baxmayaraq, etnik azlıqların dövlət dilini bilməməsi yenə problem olaraq qalır. Müxtəlif araşdırmaların nəticələri diqqətə layiqdir. Həmin nəticələrə görə, etnik azlıq nümayəndələrinin inteqrasiyasına mane olan əsas faktor dil bilməməkdir.

*"Gürcü dilinə də başqa hər hansı, xüsusilə də dövlət dili statusu olan dil kimi inkişaf etdirilmək üçün dövlət qayğısı lazımdır ki, dil ictimaiyyətin dəyişiklikləri ilə bağlı artırılmış tələblərə cavab versin"* – strategiya sənədində yazılıb.

## 2015-Cİ İLDƏN 2022-Cİ İLƏ QƏDƏR MÜƏLLİMLƏRİN ƏMƏKHAQQI NƏ QƏDƏR ARTIRILIB?



Müəllimlərin peşə və karyera inkişafı sxeminin yaradılmasından sonra pedaqoqların əməkhaqqı status əlavəsinə görə artıb. Sxem 2015-ci ildə yaradılıb və o zaman bütün sertifikatı olmayan müəllimlərə təcrübəçi (praktikos) statusu verildi. 2015-ci ilə qədər ümumi qabiliyyət və fənn imtahanını uğurla verənlər isə baş müəllim statusu qazandı.

Sxemin yaradılmasından sonra pedaqoqların əməkhaqqı statuslara görə dəyişdi. Bu, müəllimlər üçün karyeralarını inkişaf etdirmək üçün bir növ motivasiya idi.

2015-ci ildə sxemlə müəyyən edilmiş müvafiq status əlavəsinin tam miqdarı belə idi:

- **Baş müəllim üçün – 160 lari;**
- **Aparıcı müəllim üçün – 250 lari;**
- **Mentor müəllim üçün – 300 lari.**

2017-ci ildən müəllimlərin əməkhaqqı artırılmağa başladı. Baş müəllimin əlavəsi 320 lari, aparıcı müəllimin 500 lari, mentor müəllimin isə 700 lari oldu.

2018-ci ilin 1 fevralından statusa bağlı olan əlavə yalnız aparıcı və mentor müəllimlər üçün artırıldı. Aparıcı müəllimin əlavəsi 500 lari əvəzinə 700 lari, mentor müəllimin əlavəsi isə 700 lari əvəzinə 1000 lari oldu.

2019-cu ilin sentyabrından baş, aparıcı və mentor statusu olan bütün müəllimlərin status əlavəsi 150 lari artdı. Baş müəllim üçün əlavə 470 lari, aparıcı müəllim üçün 850 lari, mentor müəllim üçün isə 1150 lari oldu.

Əməkhaqqının artırılması 2020-ci ildə də davam etdirilməli idi və müəllimlər sentyabrdan əlavə 150 lari almalı idilər. Ancaq onların əməkhaqlarının artırılması 2021-ci ilə qədər təxirə salındı. Əlavə isə 150 lari deyil 100 lari artırıldı.

2021-ci ilin 1 yanvarından baş müəllimin əlavəsi 570 lari, aparıcı müəllimin 950 lari, mentor statusu olan müəllimin əlavəsi isə 1250 lari oldu.

Təhsil və Elm Nazirliyi müəllimlərin əməkhaqlarının artırılması vədini mərhələli şəkildə olsa da yerinə yetirdi. 2015-ci ildən 2022-ci ilə qədər müəllim statusunun əlavəsi demək olar 4 dəfə artırılıb.

Sertifikatı olan müəllimlər 2022-ci ilin yanvarından artırılmış əməkhaqqı alacaqlar. Status əlavəsinin tam miqdarı isə belədir:

- **Baş müəllim üçün – 670 lari;**
- **Aparıcı müəllim üçün – 1050 lari;**
- **Mentor müəllim üçün – 1350 lari.**

Dörd il əvvəl baş nazir Mamuka Baxtadze pedaqoqlara vəd verdi ki, 2022-ci ildə müəllimlərin orta əməkhaqqı 1500 lari olacaq. Mentor müəllimin maaşı isə 2000 lari və daha artıq olacaqdı. 2022-ci il gəldi, pedaqoqların əməkhaqqı həqiqətən də artdı, ancaq qeyd olunduğu qədər deyil. Vəd yerinə yetirilmədi. Müəllimlərin orta əməkhaqqı 1000 laridir, mentor statusu olan müəllimlərin isə 1500

## VAHİD MİLLİ İMTAHANLARA QEYDİYYAT MART AYINDA BAŞLAYACAQ



Vahid milli imtahanlara qeydiyyat mart ayında başlayacaq. Bu barədə Milli Qiymətləndirmə və İmtahanlar Mərkəzinin rəhbəri **Sopio Qorqodze** məlumat verib. Onun sözlərinə görə, qeydiyyata qədər "Abituriyent üçün bələdçi – 2022" nəşr olunacaq.

*"Bu il üçüncü fənnin seçilməsi ilə bağlı yenilik var. Abituriyentlərə xatırladım ki, üç əsas fəndən imtahan verilirdi. Bu, gürcü dili və ədəbiyyatı, xarici dil və sahəyə görə tarix və ya riyaziyyat fənni idi. Bu il üçüncü fənnin siyahısı artırılıb. Əlbəttə, proqrama baxır, ancaq abituriyentlər artıq kimyadan, biologiyadan və s. imtahan verə bilərlər. Qeydiyyat güman ki, martda başlayacaq. Qeydiyyatdan əvvəlki günlərdə 2022-ci ilin bələdçisi yayımlanacaq və abituriyentlərdən xahiş edirəm ki, bu sənədlə yaxşı tanış olsunlar. Burada nəzərə almalı olduqları bütün detallar olacaq. Qeydiyyat zamanı baş verəcək ən pis hadisə bu ola bilər ki, abituriyent qeydiyyatdan keçdiyini hesab etsin, ancaq əslində qeydiyyatdan keçə bilməyib. Mən onlara məsləhət görürəm ki, sonda ekrana qeydiyyatı təsdiqləmək pəncərəsi çıxanda həmin təsdiqləməni gözləsinlər, yaxud fotosunu çəksinlər, ya da saxlasınlar, saxlama düyməsini mütləq tıklasınlar"*, - deyə S.Qorqodze bildirib.

Mərkəz rəhbəri bu il qrant verilmə qaydasında dəyişikliyin olmayacağını da qeyd edib:

*"Qrant verilmə qaydasında dəyişiklik olmayacaq. Üç fənnə görə qrant veriləcək. Hər fənnin öz əmsalı var. Gürcü dili və xarici dilin 1, qalanlarının 1,5 əmsalı var".*

S.Qorqodze bildirib ki, imtahanda qüvvədə olacaq tənzimləmələr barədə əvvəlcədən detallar məlum deyil. Bu, epidemioloji vəziyyətdən asılıdır. Ancaq maska taxmaq və məsafə saxlamaq öhdəliyi güman ki, yenə olacaq:

*"Bu prosedurları imtahanlar yaxınlaşana qədər edə bilmirik. Çünki bilmirik epidemioloji vəziyyət necə olacaq. Buna görə Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi və Xəstəliklərə Nəzarət üzrə Milli Mərkəzlə razılaşma nəticəsində qrup yaradılıb. Qrup imtahana bir ay qalmış toplaşacaq və ötən ilin təcrübəsini nəzərdən keçirəcək. Bu il imtahanları hansı prosedurlarla keçiriləcəyinə qərar veriləcək. Artıq təcrübə toplamışıq, onu deyə bilərik ki, pandemiya şəraitində bu qədər proseduru təşkil etmək çətindir. Çünki insanların sağlamlığına aiddir. Fikrimcə, yaxşı öhdəsindən gəlirik. Konkret detalları deyə bilmərəm, yəqin maska taxmaq, məsafə saxlamaq, dezinfeksiya və s. yenə olacaq".*

Mərkəz rəhbəri abituriyentlərə tövsiyə edir ki, onlardan əvvəlkilərin təcrübəsini nəzərə alsınlar və prioritetli proqramların seçilməsinə diqqət yetirsinlər:

*"Ötən ilin bələdçisinə nəzər yetirmələri mühümdür. Orada əsas səhvlər, texniki məsələlər, proqrama dördüncü fənn birləşdirilibmi, hansısa fənn üçün minimal kompetensiya həddi artırılıbmı kimi məsələlər qeyd olunub. Məsələn, xarici dildə ümumiyyətlə 20 faizdir, ancaq bəzi universitet və proqramlar 50 faiz tələb edir. Bunu əvvəlcədən bilməliyik ki, səhv etməyək. Mühümdür və nəzərə almalıdırlar ki, balları öyrəndikdən sonra da proqramları dəyişə bilərlər və həmin reytinq siyahısını maksimum yaxşı qaydaya sala bilərlər. Maksimum dərəcədə çox proqram seçsinlər, çünki bəzisi 5-6 proqram seçir və məlum olur ki, yaxşı balları var. Ancaq elə böyük müsabiqə olur ki, heç bir yerə düşə bilmir. Aydın olur ki, kim müqayisədə aşağı bal toplayırsa o qəbul olur və yüksək balı olan universitetdən kənar qalır. Bu, baş verməməlidir. Ötən il təxminən 400 belə hal baş verdi, ondan əvvəlki il daha çox idi".*

*Səhifədəki məlumatlar "etaloni.ge" saytından götürülüb.*
*Gürcü dilindən tərcümə etdi:* ***Aynurə ƏLİYEVA***

# ƏSƏRİNİ SEYR ETMƏYƏ CƏSARƏTİN VARMI?

Fani həyatda insanların yaxşı və ya pis olmasında digər insanların da təsiri vardır. Mütləqdir ki, birinin həyat yolunda digərinin ayaq izi olmasın.

Nə xoşbəxtdir o kəslər ki, buraxdığı izlər xoş təəssüratlar yaradır və faydalıdır. Vay o kəsin halına ki, buraxdığı izlər yara izləridir və arada sızıltı ilə sancmaqdadır. Fani həyat bəşəri varlıqların toplaşaraq bərabər rəqs etdikləri bir səhnədir. Lakin həyatın sonunda bəşəri olanlar əməllərindən, buraxdıqları izlərdən dolayı bəşər olmayan qarşısında hesaba çəkilərlər. Bu hesabın var olduğuna inananlar necə də hüzurludurlar, buna inanmayanlar hüzurdan məhrum edilmişdirlər.

Qanayan izlər buraxanlar əksəriyyətlə hesabın var olduğuna inanmayanlardır. Aciz insan imandakı huzurun ləzzətini, gözəlliyini nə bilsin.

Yaşadığımız həyatda, qeyd etdiyimiz kimi, insanlar bir-biri üzərində izlər buraxır, lakin gəl gör ki, hər kəs buraxdığı izi seyr edəcək qədər cəsarətlidirmi?

Güllük-gülüstanlıq izləri buraxan kəslər seyrə durarkən buraxdıqları gözəlliklərə tamaşa edərlər, lakin yara izləri buraxanlar isə bunun əksini görərlər. Buraxdıqları izləri seyr etməyə cəsarət edə bilməzlər.

Yara izləri buraxan birilərinə gül bağçaları seyr etdirmək bir ərdəmdir, lakin axır zaman insanında bu ərdəm çox nadir tapılar. Bunun üçündür ki, başqaları üzərində cəsarətimiz qədər iz buraxaq. Yəni sözümün canı budur ki, yaxşılıq edənlər yaxşılıq görərlər və hüzurlu olarlar, pisliyə yaxşılıq etmək də nadir tapılan bir ərdəmdir.

Yara izi sahibləri də eyni izlərlə qarşılaşanda o zaman şikayətlər meydana gəlir və başlayırlar ki, insanlar niyə belə dəyişirlər, zəmanədən şikayət edirlər. Bir dönüb öz etdiklərinə baxmırlar ki, biz başqası üzərində nə iz buraxdıq ki, o kəs də mənə necə davransın.

Və beləliklə ardı-arası kəsilməyən şikayətlər zənciri meydana gəlir. Əminəm ki, kamil bir insan sorğuladığı davranışın öz-özlüyündə hesabatını etsə o zaman anlayacaq nəyin nəyə görə olduğunu və beləliklə şikayət zənciri qırılacaq.

Hər rəssam çəkdiyi əsərinə tamaşa edəcək qədər cəsarətli və zövqlü olar. Hər bir insan da həyat rəssamıdır. Ancaq həyat rəssamı olmaq adi rəssam olmaqdan çox fərqlidir. Həyat rəssamı əsərini seyr edə biləcək qədər cəsarətli deyil. Həyat rəssamının əsəri fırça və boya ilə meydana gəlməz, əməl və davranışla meydana gələr. Əməl və davranışları fırça və boyanı seçimindəki həssaslıqla seçərsək və əsər üzərində işləyərkən diqqətli olarsaq, o zaman seyri keyifli bir mənzərə meydana çıxar və beləliklə həyat dediyimiz bu səhnənin tamaşasına doyum olmaz. Və beləliklə həm fani dünyada, həm də hesab günündə hüzur yoldaşımız olar.



Hüzursuzluğun baş alıb getdiyi bu fani həyatda hərəkət və davranışlarımıza diqqət yetirsək bunun qarşısını ala bilərik. Mən etsəm də başqaları etmir deyərək həyatı birgə zay etməyin mənası yoxdur. Bu gün sən, sabah mən mənfi hərəkətlərdən uzaqlaşaraq başqalarına nümunə ola biləcəyiksə narahatlıq verən mövzularda yarışmağa nə gərək var.

Xeyirdə yarışaq, şərdə deyil. Şər onsuz elə bataqlıqdır ki, ora düşən asanlıqla xilas ola bilmir, bizlər də özümüzü o bataqlıqdan qorumalı və batanlara da yardım etməliyik hər mənada.

Həyat fərd olaraq oynanılacaq bir səhnə deyil, həyatda hüzurun olması üçün cəmiyyətin hüzurunun olması lazımdır ki, bu hüzur birimizdən digərinə sirayət etsin. Bunun əksi düşünülə bilməz. Fərd özü üçün dilədiyi hər nə varsa onun yansımasını cəmiyyətdə görmək üçün də səy gösdərməlidir.

**Lamiyə HACIYEVA**
*Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan Müftiliyinin Qadınlar Şöbəsinin sədri*



# DÜŞMƏN QƏBİLƏ, DOST QƏBİLƏ, ELİTA, AŞAĞI TƏBƏQƏ

Düşmən qəbilə və dost qəbilə anlayışlarına yaxın mənaları olduğu üçün daxili qrup və xarici qrup anlayışlarını da söhbətimizə daxil edə bilərik. Çox qədim zamanlarda, tarixin ilk vaxtlarında düşmən qəbilə və dost qəbilə var idi. Dövrümüzdə isə düşmən qəbilə və dost qəbilə haradasa məhv oldu, öz yerini xarici qrup və daxili qrupa buraxdı. Nədir daxili qrup, nədir xarici qrup?

Çox qədim vaxtlarda, bildiyimiz kimi, insanlar qəbilələr halında yaşayırdılar və bu qəbilələr arasında savaşlar, çəkişmələr olurdu. Hər hansı bir qəbiləyə daxil olan insanlar yolda gördüyü hər hansı bir insanın düşmən qəbilənin mənsubu olduğunu biləndə həmin insanın yaxşı və ya pis insan olduğunun heç bir mənası qalmazdı, artıq o insana nifrət edərdilər. Ancaq öz qəbilələrinə mənsub olan insanlar pis insan da olsa, o insanı öz qəbilədaşları olduğu üçün yaxşı insan kimi qəbul edər, o insana simpatiya bəsləyərdilər, hətta bəzən qəbilənin bəzi fərdlərini yaxşı və ya pis olmasından asılı olmayaraq müqəddəsləşdirərdilər. Bu fərd qəbilənin başçısı da ola bilərdi, ağsaqqalı da. Qəbilə başçısı və qəbilə ağsaqqalı ayrı şeylərdir.

Bir qəbilənin bir neçə ağsaqqalı ola bilərdi, ancaq mütləq bir başçısı olmalı idi. Çox təəssüf ki, indiki insanlarımızın da əksəriyyəti qəbilə təfəkküründədirlər. Bu təfəkkürü İrançılar və Turançılar qarşıdurmasında rahatlıqla müşahidə edə bilərik. İrançılar öz ağalarını müqəddəsləşdirdikləri kimi, Turançılar da öz öndərlərini müqəddəsləşdirməkdədirlər. O ağaların və ya bu öndərlərin yaxşı tərəfləri olduğu kimi, pis tərəflərinin də olması mümkündür, həmçinin əksinə. Ancaq bu fanatik insanlar bunu qəbul etməzlər. Qəbilə təfəkküründəki İrançılar üçün Turan düşmən qəbilədir, Turançılar üçün isə İran düşmən qəbilədir. Ancaq İrançılar üçün özləri kimi digər İrançılar öz daxili qruplarındadır, Turançılar isə xarici qrupda. İnsanlar daxili qrupda olanları ədalətli, mərhəmətli, yaxşı insan, dəyərli insan saymaqdadırlar. Bu daxili qrupda olanlar üzü nurlu, mülayim və nəcibdir. Xarici qrupda olanlar isə üzlərində təbəssüm qarışıq nur olsa belə, bu nur o insanın bicliyinə və "aferistliyinə" yozulmaqdadır.

Ən başda qeyd etdiyim kimi, düşmən qəbilə və dost qəbilə artıq yox kimidir, ancaq qəbilə təfəkkürü hazırda da mövcuddur. Yenə də qeyd edim ki, qəbilə təfəkküründə olanlar üçün özləri kimi olanlar öz daxili qruplarındadır, özləri kimi düşünməyib əksinə düşünənlər isə xarici qrupda. Yəni artıq qəbilə təfəkkürü, daxili qrup və xarici qrup var. Bu təfəkkür isə dünya barışının qarşısındakı ən böyük maneədir.

Dünya barışının qarşısına duran bir digər maneə isə çox böyük olmasa da elita və aşağı təbəqə arasındakı anlaşılmazlıq və uçurumdur. Elitanın aşağı təbəqəyə qarşı saymazyana münasibəti və aşağı təbəqənin yuxarı təbəqədəkinə nifrətini qeyd etmək olar. Yuxarı təbəqənin saymazyanalığına haqq qazandırmasaq belə, aşağı təbəqənin nifrəti bir az başa düşüləndir. Hətta aşağı təbəqənin arasında da imkanlıları mövcuddur ki, özlərinə olan inamlarını işləri, yaraşıqlı evləri və bahalı maşınları ilə ölçürlər. Bu insanlar hamımızın bildiyi kimi, toylarda pul səpən, bahalı geyimlər geyinən, yüksək səviyyəli mağazalardan alver edən insanlardır. Bu insanlar bazarda əllərində kofe, banan və bu kimi şeylər gəzdirib satan, günə 4-5 lari qazana bilmək üçün çalışan stıcılardan nəsə almağı özlərinə sığışdırmazlar. Bu insanlar əsl ərdəmin insanlara faydalı olmaq olduğunu başa düşməzlər.

Mən bəzən düşünürəm, həyatda heç bir ali məqsədləri olmayan bu insanların yaşamaq səbəbləri nədir görəsən?.. Bu insanları metro, avtobus və bu kimi digər nəqliyyat vasitələrində görə bilməzsiniz. Bu kimi insanlar (o cümlədən elitadan olanlar da) kasıblıq səviyyəsində yaşayan insanların süfrəsində oturub onların yediyindən yeməz. Onlara yuxarıdan aşağı baxar. Əslində isə, əsil hörmətə layiq olan insanlar aşağı təbəqənin insanlarıdır. Çünki istehsal edən, əkib-becərən onlardır. Müharibədə ilk əvvəl onların balaları şəhid olmaqdadır. Çətin işlər onların boynundadır. Yuxarı təbəqə isə parazit kimi bu insanların zəhmətindən faydalanmaqdadır. Ancaq bu insanların arasında da mənim kimi düşünən insanlar, əlbəttə, vardır. Onlar mənim dostumdur. Yəni biz eyni qəbilədənik.

**Vüqar VƏKİLOĞLU**

## MÜƏLLİF HAQQINDA



Elizbar Dimitriyeviç Cavelidze 1938-ci il dekabrın 15-də Tbilisi şəhərində anadan olub. 1956-cı ildə Bolnisi orta məktəbinə gedib, sonra təhsilini Tbilisi Oğlanlar Gimnaziyasında davan etdirib. Sonralar Tbilisidəki 42 saylı orta məkrəbə keçib.

1956-cı ildə yenidən Bolnisi orta məktəbinə qayıdaraq, 1956-cı ildə Kazreti (indiki Madneuli) orta məktəbini bitirib.

1956-1961-ci illərdə İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetində şərqşünaslıq fakültəsində təhsil alaraq oranı fəqlənmə diplomu ilə bitirib. Tələbəlik illərində A.Sereteli adına təqaüdçü, şərqşünaslıq fakültəsinin tələbə elmi şurasının sədri olub.

1962-2006-cı illərdə akademik Q.Sereteli adına Şərqşünaslıq İnstitutunda kişik elmi işçi (1962-1966-cı illər); elmi işçi (1966-1975-ci illər); böyük elmi işçi (1988-2006-cl illər) işləyib. Paralel olaraq Tbilisi Dövlət Universitetində mühazirələr oxuyub.

1966-cı ildə "Ruhi Bağdadi" (Həyatı, dünyagörüşü, lirikası) mövzusunda dissertasiya müdafiə edib.

1972-ci ildə Tbilisi Dövlət Universitetinin türkologiya kafedrasının dosenti adına layiq görülüb.

1975-ci ildə "Cəlaləddin Rumi" (dünyagörüşü məsələləri) mövzusunda doktorluq dissertasiyası müdafiə edib.

1985-1986-cı illərdə "Tənqid" jurnalının baş redaktoru olub.

1986-1990-cı illərdə "Literaturuli Sakartvelo" ("Ədəbi Gürcüstan") qəzetinin baş redaktoru olub.

1988-ci ildə Tbilisi Dövlət Universitetinin türkologiya fakültəsinin professoru adına layiq görülüb. Elə hənim il Gürcüstan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilib.

1989-cu ildə Azərbaycan Respublikası Ali Sovetinin fərmanı ilə "Azərbaycanın əməkdar mədəniyyər işçisi" fəxri adına layiq görülüb.

1991-ci ildə Gürcüstan Respublikasının təhsil və elm naziri olub.

1992-1995-ci illərdə "Gürcüstanın zəng qülləsi", "Kolx qülləsi", "Zəng qülləsi" qəzetlərinin naşiri və redaktoru olub.

1996-1999-cu illərdə Almaniya Federativ Respublikasında yaşayıb.

1999-2003-cü illərdə Gürcüstan parlamentinin üzvü seçilib və "XXI əsr" fraksiyasına başçılıq edib. Elə bu dövrlər "Yeni dövr" qəzetinin naşiri və redaktoru olub.

2005-2007-ci illərdə "Aisi" qəzetinin naşiri və baş redaktoru olub.

2013-cü ildə Gürcüstan Milli Akademiyasının həqiqi üzvü seçilib.

Elizbar Cavelidze 16 monoqrafiyanın, 300-dən artıq elmi məqalənin və publisistik yazının müəllifidir.

2017-ci ildə "Məhəmməd Füzuli – Həyatı, mühiti, yaradıcılığı" kitabı, 2018-ci ildə "Ruhi Bağdadi (Həyatı, dünyagörüşü, lirikası)" kitabı Mirzə Məmmədoğlunun tərcüməsində AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərəfindən nəşr edilmişdir.

# TÜRKDİLLİ XALQLARIN ƏXLAQİ-ESTETİK ALƏMİ

## Nə vaxtsa ağı qaradan seçməyin vaxtı gələcək (Türk folklorunun estetikası və mənəvi əqidəsi)

I

Kitabın müəllifi Orta əsrlər Yaxın Şərq İslamının əxlaqi-estetik aləmini tədqiq edir. Qarşıdakı əsərdə türkdilli folklorun əxlaqi-estetik məsələləri öyrənilmişdir ki, bu da bir növ tədqiq olunası problemin əsasının olduğu birinci cilddir. Tədqiqatçı qədim sivilizasiyanın yaradıcısı ən qədim Şərq və Orta əsrlərin Yaxın Şərqinin əxlaqi estetik düşüncəsinin ümumi mənzərəsini göstərməyə cəhd edir. Gülüş fenomeninin (Molla Nəsrəddin) və qədim türk xalq eposunun (Dədə Qorqud, Koroğlu) bədii xüsusiyyətləri müzakirə edilib. Eləcə də ritual daşlarda həkk olunmuş yazıların estetik-rəmzi əhəmiyyəti öyrənilib.

**Müdrik Dədə Qorqudun əxlaqi-estetik aləmi**

"Oğuz tayfalarının dilində" yaradılan türk xalqının çox qədim nümunəsini təşkil edən, qəhrəmanlıq eposu janrına məxsus olan "Kitabi-Dədə Qorqud" qədim və Orta əsrlərin türkdilli ədəbiyyatının dəyərlərindən biri və çox mühüm abidəsidir.

Əsərin yaradılmasının xronoloji, eləcə də coğrafi məkanı bir növ genişdir. Ona daxil olan hekayətlər, daha doğrusu, əfsanələr nüxtəlif vaxtlarda müxtəlif yerlərdə və müxtəlif ozanlar tərəfindən yaranırdı. Güman edildiyinə görə, onun yaradılması Orta Asiyada, Sırdərya düzənliklərində (IX-X əsrlər) başladı və Oğuzların yeni yaşadığı yerdə (Azərbaycanda) və Kiçik Asiyanın qonşu diyarlarında (XI-XV əsrlərdə) başa çatdı *(Жирмунский В.М., Огузкий героический эпос и «Книга Коркуда», Огузкий геройческий эпос, перевод академика В.В.Вартольда. Издательство Академии Наук СССР, М.-Л., 1962, стр. 256.)*. Bir sözlə, o, tipik xalq yaradıcılığı olaraq, Oğuz tayfalarının iştirak etdiyi, (köçərilik etdiyi) və məskunlaşdığı coğrafi məkanda əmələ gəldi, tədricən üzərində işlənirdi və dolğunlaşdırılırdı. Buna müvafiq olaraq da formasını və istərsə də fikrin dolğunlaşdırmasını, yenidən düzəliş edilməsini müəyyən şəkildə məhdudlaşdıran xronoloji çərçivələr də müəyyən edilirdi.

Böyük diqqət yetirmək lazım gəlmir və bu abidənin dünyagörüşlük səviyyəsində etik-estetik axınının iki qatının özünü bürüzə verdiyi adi gözlə də aydın görünür. Biri Oğuz ənənələridir və ikincisi İslamı qəbul edəndən sonra mənimsənilmişlərdir. Qısası, Dədə Qorqud hekayətlərini bir çərçivəyə salan və nəhayət, onu dolğunlaşdıran müəllif qədim ənənəvi görüş dairəsini İslamın bürüncəyinə bürüməyə cəhd göstərir və buna nail olur da. Təbiidir ki, bütün bunlar oğuzların İslamı qəbul etməsindən sonra xalqın düşüncəsinin yenidənqurulmasına uyğun gəlirdi və müvafiq olaraq bu yeni formada əks olunma elə xalq yaradıcılığının özünə də əsas olurdu.

Bəri başdan qeyd etməliyəm ki, bu abidə çoxlu görüş dairəsi ilə diqqətə layiqdir. Birincisi, o, bizə qədər yazılı şəkildə gəlib çıxan qədim folklor yaradıcılığıdır. İkincisi də, bu abidə sırf Oğuz (türk milli) ruhunun təsviredicisidir ki, bu da Orta əsrlər türk gerçəkliyində nadir hadisədir. Bir qayda olaraq, Orta əsrlər divan ədəbiyyatı əsasən İslam ideologiyasının təsviredicisidir və forma ilə də və məğz ilə də İslamın mədəni bölgəsində qanunilaşmış ümumi estetik moduslara, istərsə də irəlicədən işlənib hazırlanmış dini, istərsə də estetik konsepsiyalara uyğun gəlirdi. Buna görə də onda milli türk ünsürü çətin tapılır. Dədə Qorqudda isə folklor yaradıcılığında olduğu kimi bu milli ruh fəvvarə kimi püskürülmüşdür. Bundan başqa bu epos, ümumiyyətlə, tarixi-etnoqrafik, mənəvi-adət-ənənə, məişət faktlarının əksetdiricisidir, nadir materialdır ki, bu da hər şeydən öncə, Orta Asiya və Azərbaycan-Türkiyə patriarxal-tayfa quruluşunun, İslama qədər, istərsə də onun sonrakı dövrünün tədqiqi üçün dəyərlidir. Və nəhayət, ən başlıcası, epos bədii dolğunluğu ilə, dəyəri ilə, əsasən hər halda ifadə etmənin spesifik və orjinal baxışla şərtlənmiş nadir əsərlərdən biridir ki, bunu da türk ədəbi aləmi yaradıb.

...Buna görə də bu gün ona alimlərin göstərdiyi maraq təbiidir: Abidənin öyrənilməsinin böyük tarixinin olmamasına baxmayaraq onun barəsində bir çox aspektin yüksək səviyyədə təhlil olunduğu zəngin elmi ədəbiyyat mövcuddur. Qısası, o, mətnşünasların və ədəbiyyatşünasların, tarixçilərin və etnoqrafların, folklorşünasların və ədəbiyyatşünasların tədqiqat obyektinə çevrilmişdir. Mövcud olan çoxsaylı əsərlər arasında 12 boyunu da rus dilinə tərcümə edən və ona müqəddimə əlavə edən akademik V.V.Bartoldun xidməti hər halda xüsusu diqqət çəkir. Elə burada V.M.Jirmunskinin bir çox baxımdan öyrənilən tədqiqatını qeyd etməliyik *(Bax. V.Bartoldun tərcüməsinə əlavə olunan müqəddiməyə, eləcə də onun "Xalq qəhrəmanlıq eposu"(1969-cu il) əsərinə)*. Eləcə də Xalıq Koroğlunun tarixi, istərsə də ədəbi səviyyədə zəngin elmi material sayəsində bu qəhrəmanlıq eposunu müzakirə etdiyi "Oğuz qəhrəmanlıq eposu" diqqətəlayiqdir *(Bax. Огузский Героический Эпос, М., 1970)*. Lakin Dədə Qorqudun öyrənilməsi üçün Orxan Şaiq Kökyayın bu əsərin yekunlaşdırılmış mətninin verildiyi, müasir dilə salındığı və ona da lüğətin əlavə olunduğu "Dədə Qorqud kitabı" fundamental əsəri həddindən artıq dəyərlidir. Eləcə də bu əsərə aid olan bütün materiallar burada cəmləşdirilmişdir. Və ən başlıcası, əsərdə qaldırılan bütün məsələlərin dolğun və dərin təhlili verilmişdir *(Hazırlayan Gökyay O.Ş., "Dedem Korkutun Kitabı", Milli Eğitim basımevi, İst., 1973)*. Eləcə də Mustafa Sinan Kaçalinin bu son vaxtlar nəşr olunan "Kitabi-Dədə Qorqud" Oğuz tayfalarının dilində" əsəri diqqətə layiqdir, burada da müəllif ilk dəfə olaraq əsərin əslini ərəb transkripsiyası ilə və eləcə də latın əlifbası ilə qurulmuş şəkildə bizə təqdim etmişdir ki, bu da əsərin əslinin mətninin hansı xüsusiyyətləri əks etdirdiyi və necə səsləndiyi barədə bizdə aydın təsəvvür yaradır. Eyni zamanda o, "müasirləşdirilmiş" mətnə müəyyən düzəlişlər edir. Dil təhlilini bizə təqdim edir və ən başlıcası, bu və ya digər ifadənin, istərsə də xüsusiyyətin ətraflı təhlilini bizə çatdırır *(Kaçalin Mustafa S., Oğuzların Diliylə Dedem Korkutun Kitabı, Ankara, 2017)*.

Lakin bu dəfə mənim tədqiqatımın əsas məqsədi odur ki, bütövlüklə bu xalq eposunu gözəlləşdirən, ucaldan və nadir istisnalardan başqa, tədqiqatçıların ikincidərəcəli hesab etdikləri zəngin mənəvi-əxlaqi və hissiyat aləminin dərinliyinə varam. Halbuki "Dədə Qorqud"un xalq qəhrəmanlıq eposu olaraq əsas təyinatı odur ki, oxucuda, istərsə də dinləyicidə estetik-hissiyyat kodunun vasitəsilə Oğuzlar nəslinin əsrlər boyu işləyib hazırladığı, daxilən özününküləşdirdiyi və nəsildən nəslə ötürdüyü xəzinə kimi mənəvi estetik-əxlaqi, dini görüş dairəsini və ənənələri oyatsın, onu özününkü etsin (təlqin etsin).

*(davamı gələn sayda)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə MƏMMƏDOĞLU**

# NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR
## SOSİUM
## 8. TƏMİZLİK İMANDANDIR



*(əvvəli ötən sayda)*

Küçələrin, meydanların, səkilərin, dalanların süpürülməsi, yuyulması işini xüsusi maşınlar icra edir. Bu kiçik maşınların girə bilmədiyi yerlərdə isə, əllərində xüsusi maşalar, sorucu-üfürücü elektrik süpürgələr olan təmizlik işçiləri dövrəyə girirlər. Bu cür işçilərin sayca az olması da diqqətdən yayınmır. Yaşıllıqların, qazonların baxımı da mexaniki vasitələrlə, daha doğrusu xüsusi, adətən kiçikölçülü maşınlarla həyata keçirilir. Bu cür texnika ilə qazonla örtülü böyük sahəni qısa müddətdə biçmək mümkündür. Təmizlik işinin, yaşıllıqların baxımının nizamlı həyata keçirilməsində, qrafikə, rejimə əməl edilməsində hansısa gecikmə, yubanma mümkün deyil. Nəyin nə vaxt edilməsində hər hansı bir axsama qeydə alına bilməz. Hər şey vaxtında və dəqiq yerinə yetirilir.

Bütün bunların bizim şəhərlərə də ayaq açmasını, yollarda maşınların təkərləri altında can verən insanlarımızın qurtulmasını o qədər ürəkdən istədiyimi bu sətirləri yazarkən, bir daha hiss etdim. Bir süpürgə, bir xəkəndazla klassik qaydada təmizlik işləri ilə məşğul olan, həyatlarını riskə atan insanlarımızın haradasa işləyib, çörəkpulu qazanmaları üçünsə iş yerləri açmağın arzu kimi qalmasını yox, gerçəkliyə çevrilməsini isə hər birimiz anlayırıq.

Şəhərlərin təmizlik işlərində qoyunların da xidmətindən istifadə olunur. Bilirəm inanmaq istəməyəcəksiniz, amma bu gerçəkdən də belədir. Bəzi şəhərlərdə bələdiyyələr bu məqsədlə kiçik qoyun sürüləri saxlayır. Texnikanın girə bilmədiyi, əl əməyindən istifadənin çətin olduğu, bəlkə də baha başa gəldiyi yerlərdə qoyunların xidmətindən yararlanmaq, məncə, pis ideya deyil. Kanalların sahillərini basan qamışlıqlara, alaq otlarının kükrəyib qalxdığı yerlərə buraxılan, bizim qoyunlara nisbətən daha iri olan holland qoyunları həm qarınlarını doyurur, həm də şəhərin təmizlik işlərində yardımçı olurlar. Buyur, bu da sənə təmizliyin holland metodlarından biri. Mən bələdiyyənin xidmətində duran bu kiçik qoyun sürülərinə Amersfortda da rast gəlmişdim, Hoogvlietdə də. Mənim “Allah, allah, bu qoyunların şəhərin ortasında nə ölümləri var” təəccübümə səbəb olan bu mənzərənin sirlərini isə çalışdığım marketin sahiblərindən biri Sinan mənə anlatmışdı. Atası türk, anası holland olan Sinan milli kimliyini soruşanlara özünün yarıtürk, yarıholland olduğunu söyləyirdi.

Müasir Avropa həyatından bəhs edən bəzi filmlərdə qəhrəmanların evdə ayaqqabılarını soyunmadan dolaşması səhnələrini hamımız izləmiş və məhz bu məqama diqqət yetirərək, ola bilsin ki, onları qınamışıq da. Adam da ayaqqabısını çıxarmadan evə girərmi sualını da vermişik. Vallah, nə gizlədim, Niderlanda gələnə qədər mən eyni sualı bəlkə də daha kobud şəkildə dəfələrlə vermişəm. Ancaq bir sıra məsələlərdə olduğu kimi, bu sahədə də yanıldığımı görmüşəm. Burada yaşadığım müddətdə ayaqqabılarımı nadir hallarda silib təmizlədiyimi də demədən keçməyim. Niyə təmizləməlisən, nədən təmizləməlisən ki? Toz yox, torpaq yox. Küçəsi, səkisi, həyəti, meydanı evdən də təmiz saxlanılan bir mühitdə bu cür davranış normal görünür. Təmizlik baxımından evin içi ilə çölü arasında bir fərq yoxdursa, ayaqqabı soyunmağa bir gərək qalmır. Ancaq bu o demək deyil ki, avropalılar, elə hollandlar da evlərində ayaqqabılarını soyunmurlar. Onlar da adətən bizim kimi evlərində ayaqyalın dolaşırlar. Bunu etmirlərsə bizim onları yuxarıda göstərdiyim səbəblərdən dolayı qınamağımız, mühakimə etməyimiz doğru deyil.

Mən bu təmizlik söhbətinin yönünü bir balaca dəyişib, ağzını başqa səmtə salmaq istəyirəm. Sizin üçün də maraqlı olacağını düşünürəm. Bir qədər mübahisəli olduğunu da anlayıram. O üzdən də, onu müzakirəyə açıq da hesab edə bilərsiniz. Növbəti iki abzasımız məhz bu mübahisəli məsələ barədədir.

Bir anlıq düşünək ki, insanlar bir günlük, lap elə olsun bir neçə saatlıq təmizlik işlərinə ara verir, təmizləmək və təmizlənmək fikrindən daşınırlar. Bu müddət ərzində necə bir mənzərənin yaranacağını təsəvvür etmək belə mümkün deyil. Təmizlənməsək, təmizləməsək olmur. Bədənimizi, ətrafımızı, evimizi, məhəlləmizi təmizləməsək yaşaya bilərikmi? Dünyanın ibtidasından insan özünün fəaliyyətindən sonra yaramayan artıqlardan təmizlənir. Bu proses onun gündəlik həyat normasıdır. Özümüzü, ətrafımızı təmizləmək üçün çeşid-çeşid vasitələr düşünürük, yeni-yeni icadlarımızla bu vasitələri daha da genişləndiririk. Təbii-kimyəvi yuyucu vasitələr, kosmetik məhsullar özümüzü və ətrafımızı təmizləməyə, paklamağa xidmət edir. Qab-qaşığımız da yuyulur, təmizə çıxarılır. Ancaq olmur, yenə də dünyanı zibilə döndəririk. Təmizləmək üçün süpürgə güc eləmir. Elektrik tozsoranlar, hətta tozüfürənlər, süpürgələr də bəzən bu zibildən bizi arındıra bilmir. Amma yenə də öhdəsindən birtəhər gəlirik. Pal-paltarımız gül kimi, ayaqqabımız par-par. Daha nə lazımdır?

Bütün bu təmizlik mücadiləmizin fonunda tez-tez mənəvi deqradasiyadan, mənəviyyat ekologiyasının pozulmasından da danışırıq. Nə etməli? Çıxış yolu nədədir? İnsanın beyni hər gün eşitdiyi qara xəbərlərlə yüklənir. Savaş görüntüləri, qasırğaların, vulkan və zəlzələlərin arxada buraxdıqları qorxunc mənzərələr, xəstəliyin və aclığın ortaya çıxardığı faciə səhnələri, təyyarə, qatar, avtomobil qəzalarının qanlı tabloları insan mənəviyyat ekologiyasının pozucularıdır. Hər gün bu görüntülərlə üzləşən insanın gözü döyənək olur, eşitdiyi xəbərlərin ağırlığından qulaqları batır. İnsanın yaddaşı bu qara xəbərlərin qəbiristanlığına çevrilir. Hər bir xəbər toz dənəcikləri kimi bədənimizə hopur. Yalanlar, dedi-qodular, şaiyələr bədənimizi, ruhumuzu kosmik zibilliyə çevirməkdədir. Arınmaq, paklanmaq üçünsə vasitələr tükənmiş kimi. Nə ədəbiyyat, nə sənət bizi mənəvi zibildən arındıracaq gücdə deyil. Şoular bu sahələrin də zibilini çıxardı. Elm böyük güclərin əlində alətə çevrilib. Elm adamları insanlıq adına çalışsalar da, onların kəşflərinin, ixtiralarının əsl sahibləri böyük inhisarlardır. Elmdən də məded ummağa dəymir bu aralarda. İdman sağlamlıq olsa da, totalizatorlar, mərc iddiaları onu başımızdan aşağı zibil yağdıran vasitəyə çevirib. Dinlər siyasiləşdiyindən, siyasi vasitəyə çevrildiyindən insanları saflaşdırmaqdan, təmizləməkdən daha çox onun varlığını zibilləməklə məşğul olmaq yolunu tutub. Saqqalla, təsbehlə də bunun altından çıxa bilmirik. Qərbdə də eyni mənzərə, Şərqdə də. Əlac, deyəsən, hər kəsin özünə qalır. Eləmi? Başlı başını saxlasın zamanımı? Nə etməli? Çıxış yolu nədədir?

Təmizlik imandandır. Bu, təcrübədə təsdiqlənmiş bir gerçəklikdir. Təmizlik insana ilahi bir rahatlıq bəxş edir. Təmiz yerin adamları saf olur. Təmizlik insanın gözəl keyfiyyətlərini üzə çıxarır. Beyninə girmək istəyən yaman fikirləri qovur, içinə toplanmaq istəyən kindən-küdurətdən arındırır. İnsanın qəzəbini soyudur, davadan-şavadan uzaq tutur. İnsan təmizlik qarşısında tərki-silah olur, şeytani hisslərdən uzaqlaşır, ruhi dincliyinə qovuşur. Yaşadığın yerin, səni əhatə edən mühitin təmizliyi sənin mənəvi dünyanın təmizliyi üçün bir başlanğıc olur. Evini, həyətini, bədənini təmizliyə qovuşduran insanın ruhi-mənəvi dünyasının təmizlənməsi üçün stimul yaranır. Demirlərmi “evini təmiz saxla, qonaq gələr, özünü təmiz saxla ölüm”, bax, təmizlik bu deməkdir. Təmizlik insana insan ömrü yaşamağa imkan verir.

*(davamı gələn sayda)*

**Afiq MUXTAROĞLU**
Niderland

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

Yeni YOL

15 YANVAR
2022-Cİ İL
№ 001 (148)

İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# “TÜRKİYƏ BURSLARI”NA MÜRACİƏTLƏR BAŞLAYIB




Türkiyədə təqaüdlə ali təhsil proqramı olan “Türkiyə Bursları” beynəlxalq tələbə aləmində yerini daha da gücləndirməkdədir. 2021-ci ildə “Türkiyə Bursları” üçün 178 ölkədən 165 min müraciət əhəmiyyətli göstəricidir.

“Türkiyə Bursları” beynəlxalq səviyyədəki təhsil, məlumat və təcrübə zənginliyi ilə birlikdə dünyanın müxtəlif ölkələrindən olan tələbələr üçün ölkənin ən yaxşı universitetlərində təqaüdlü təhsil imkanı təqdim edir.

**“Türkiyə Bursları” nə ilə fərqlənir?**

“Türkiyə Bursları” universitetlərdə sahələrə yerləşdirmə, aylıq təqaüd, universitet xərci, tibbi sığorta, yataqxana, sığınacaq, ödənişsiz peşə və akademik proqramlar və gediş-qayıdış təyyarə bileti imkanlarıyla dünyanın ən əhatəli təqaüd proqramı olaraq önə çıxmaqdadır.

**Müraciət tarixləri: 10 yanvar - 20 fevral, 2022-ci il.**

Bu il “Türkiyə Bursları”na olan müraciətlər bütün proqramlar üçün tək hissədə baş tutacaq və müraciətlər yanvarın 10-dan fevralın 20-nə kimi istənilən ölkədən olan tələbələr üçün əlçatan olacaq.

Müraciət üçün **turkiyescholarships.gov.tr** ünvanına daxil olmaq lazımdır.

**Proqramlar və təhsil səviyyələri:**

Müraciətlər bakalavr, magistratura və doktorantura səviyyəsində təhsil almaq istəyən namizədlərə açıqdır.

Araşdırma təqaüdləri, müvəffəqiyyət təqaüdləri və KATİB kimi digər proqramlar fərqli müraciət dövrlərinə malikdir və YTB-nin rəsmi saytında və ictimai media kanallarında elan olunacaqdır.

# RƏQƏMSAL UNİVERSİTET NƏDİR VƏ NƏ ZAMAN FƏALİYYƏTƏ BAŞLAYACAQ?



Bu il məhbus tələbələr üçün rəqəmsal universitet yaradılacaq. Bu barədə hələ ötən ilin avqustunda məlumat verilmişdi. Ədliyyə naziri Rati Breqadze nazirliyin 10 illik planını təqdim edən zaman bu haqda danışmışdı.

Nazir bildirmişdi ki, rəqəmsal universitet sentyabrdan fəaliyyətə başlayacaq, ancaq məlum olduğu kimi vaxt uzadıldı.

Ötən ilin dekabrında R.Breqadze cəzaçəkmə müəssisələrində ali təhsilin əlçatanlığının artırılması və keyfiyyətin yüksəldilməsinin həyata keçirildiyi islahatlar barədə məlumat vermişdi.

“Layihə universitetlərlə əməkdaşlıq nəticəsində məhbuslara distant təhsil metodu ilə tam ali təhsil almaq və istədikləri ixtisasa sahib olmaq imkanı verəcək. Cəzanın məqsədi ədalətin bərpa etmək, yeni cinayətlərin qarşısını almaq və günahkar şəxsi sosiallaşdırmaqdır. Bunun böyük qisminə məhbusun müvafiq düşüncəsi və biliyi nəticəsində nail olunacaq”, - deyə ədliyyə naziri bildirib.

Rəqəmsal universitet məhbus tələbələrə fərdi hazırlıq şəraiti yaradacaq. Onlar onlayn mühazirələrdə iştirak edə və lektorlarla interaktiv ünsiyyət qura biləcəklər.

*Mənbə: etaloni.ge*

# GÜRCÜSTAN YIĞMASINA İLK DƏFƏ AZƏRBAYCANLI GÜLƏŞÇİ VƏSİQƏ QAZANIB




11-12 yanvar tarixlərində Rustavi şəhərində 23 yaşadək güləşçilər arasında keçirilən Gürcüstan çempionatının mükafatçılarından biri əslən Dmanisidən olan Marneuli sakini Rəşad Orucovdur.

Rəşad Orucov 55 kiloqram çəki dərəcəsində üçüncü yeri qazanaraq bürünc medalın sahibi olub.

“Olimp” İdman Məktəbinin yetirməsi olan R.Orucov bu nəticə ilə Gürcüstanın yunan-Roma güləşi üzrə milli komandasına vəsiqə qazanıb.

Qeyd edək ki, Rəşad Orucov ölkə yığmasının heyətində təmsil olunacaq ilk azərbaycanlıdır.

# İSTİFADƏ MÜDDƏTİ BAŞA ÇATAN PULLARI HARADA DƏYİŞMƏK OLAR?



Gürcüstan Milli Bankının qərarına əsasən, 2022-ci ilin 1 yanvarından buraxılış ili 1995 və 1999-cu illər olan bütün lari nominallı əskinasların istifadə müddəti başa çatıb.

Milli Bankın yaydığı məlumatda bildirilib ki, köhnə əskinaslardan ölkə ərazisində ödəniş vasitəsi kimi istifadə edilməsi qadağan edilib. Bu, köhnə əskinasların müasir tələblərə cavab verməməsi ilə əlaqələndirilib. 2002-ci ildən bu günə qədər buraxılmış lari əskinasları isə bütün ölkə ərazisində qanuni ödəmə vasitəsidir. Bütün hüquqi və fiziki şəxslər həmin əskinaslarla maneəsiz şəkildə hesabat həyata keçirmək məcburiyyətindədirlər.

Məlumata görə, 1995-1999-cu illərin əskinaslarını yalnız Gürcüstan Milli Bankının kassa mərkəzlərində dəyişmək mümkündür.

# KOMMUNAL XİDMƏTLƏR BAHALAŞIB

Milli Statistika İdarəsinin göstəricilərinə əsasən, 2021-ci ilin dekabrında ötən ayla müqayisədə Gürcüstanda inflyasiya səviyyəsi 0,3 faiz, illik inflyasiya səviyyəsi isə 13,9 faiz təşkil edib.

Baza inflyasiyası isə 2021-ci ilin dekabr ayında 2020-ci ilin analoji dövrü ilə müqayisədə 5,9 faiz təşkil edib. Tütünsüz illik baza inflyasiyası isə 6 faizdir.

Qeyd edək ki, illik qiyməti ən çox artan məhsullar arasında kommunal vergilər də var. 20 % bahalaşan kələmdən sonra demək olar ki, ən çox bahalaşma kommunal vergilərlə bağlıdır (Məlumat üçün qeyd edək ki, kommunal vergilər üçün tariflər 2021-ci ilin yanvarından artırılıb, göstəricilər isə 2020-ci ilin dekabr ayı ilə müqayisə olunub. 2021-ci ilin inflyasiya göstəriciləri Milli Statistika İdarəsi tərəfindən hələ yayımlanmayıb).

2021-ci ilin dekabrında 2020-ci ilin analoji dövrü ilə müqayisədə artırılıb:

- Su vergisi – 77,4 %;
- Təbii qaz vergisi – 76,6 %;
- Elektrik enerjisi vergisi – 65,6 %;
- Zibil daşıma vergisi – 58,1 % artırılıb.

*Mənbə: bpn.ge*

**Təsisçi:**
**“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”**

**Redaktor:** Azər MUSAOĞLU
Yayım direktoru: Hacı BƏKİROĞLU
**Qrafik dizayn:** Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeniyolqazeti@gmail.com

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.